# Səhnəmizin Məcnunu

**"Uzunillik fəaliyyəti ərzində öz ədəb-ərkanı, yüksək mədəniyyəti, bənzərsiz səsi, gözəl ifaçılıq qabiliyyəti ilə minlərlə pərəstişkarının məhəbbətini qazanmış Baba Mahmudoğlu bir çox muğam və xalq təranələrinin, tanınmış bəstəkar mahnılarının mahir ifaçısı kimi hamının qəlbinə yol tapmışdır..."**

**Mehriban Əliyeva,**
**Heydər Əliyev Fondunun prezidenti,**
**YUNESKO və İSESKO-nun xoşməramlı səfiri**



Söhbətimizin çətin keçəcəyini yaxşı bilirdik. Çünki mübhəm xatirələr çözələnəcək, müsahibim xəyalən dönə-dönə artıq uzaqlarda qalmış, əlçatmaz, ünyetməz Babalı günlərə qayıdılacaqdı. Bəlkə də elə ona görə böyük sənətkarın ömür-gün yoldaşı Amaliya xanım Cəfərzadəyə sualımız bir az qeyri-adi oldu:

**- Artıq 9 ildir ki, muğam və mahnılarını sevə-sevə dinlədiyimiz görkəmli xanəndə, xalq artisti Baba Mahmudoğlu aramızda yoxdur. Bu əbədi ayrılıqdan sonra necə yaşayırsınız?!**

- Baba ömrümün baharı, həyatımın günəşi idi. 2006-cı ilin 6 dekabrından sonra mənim üçün nə bahar var, nə də ki, günəş. İndi siz söyləyin, buna yaşamaq demək olarmı?!

Belə məqamda onun vəfatı ilə əlaqədar yazılmış bir şeiri xatırlamaya bilmirəm:

*Indi nə Məcnun var, nə də ki, Leyli,*
*Köçdülər dünyadan, eşqdən gileyli,*
*Dahilər olurlar qısa taleli, -*
*Baxtinə yazıldı sənin, ay Baba...*

**Babadan sonra elə bil, həyatımı itirmişəm. Televiziya kanallarını bir-bir dəyişdikcə gözlərim onu axtarır, qulaqlarım onu eşitmək istəyir. Könül nəğmələrinə, şaqraq, mərhəm səsinə, gözəl nitqinə, maraqlı söhbətlərinə möhtac qalmışam. Babasızlığa heç cür alışa bilmirəm. Onunla bağlı o qədər acılı-şirinli xatirələr var ki... Fəqət hamısını yazıya almaq olmur. Qələm götürürəm, əllərim titrəyir. Xatirələri çözələyirəm, fikirlərim haçalanır, kövrəlirəm. Hər dəfə qələm-dəftər hazırlayıb masa arxasında əyləşəndə gülümsər çöhrəsi ilə gəlib qarşımda əyləşir. Sakitcə, dinməz-söyləməz mənə baxır...**

1972-ci ildə - evliliyimizin onuncu ilində kimyadan namizədlik dissertasiyası müdafiə edib, alimlik dərəcəsi almışdım. Həmin gün Baba "Bakı" mehmanxanasının restoranında 300 nəfərlik banket vermişdi. Bütün məclis iştirakçılarını ertəsi gün oynayacağı "Leyli və Məcnun"a dəvət etmişdi. Tamaşadan sonra hamı deyirdi ki, biz Hüseynqulu Sarabskini təzədən gördük. Əlbəttə, bunlar təsadüfi deyildi. Baba sənətini çox sevirdi. Məşqlərdən yorulmaq bilməzdi. Bu yolda hər əzaba qatlaşırdı...

Buna bir nümunə kimi, böyük sənətkarın Məcnun rolunu oynamazdan əvvəl üç ay sərasər psixi xəstələr müalicə olunan tibb müəssisəsinə gedib-gəldiyini göstərmək olar. Baba Mahmudoğlunun xatirələrindən oxuyuruq: "Məcnun bəşər xilqətindən bircə sözünə görə fərqlənirdi. Atası ona deyəndə ki, sənin nə arzun var, yerinə yetirəcəyəm, kimi istəyirsən, söylə. Məcnun dedi ki, ay ata, mən Fatiməni, Zəhranı yox, Leylini istəyirəm. Elə atasının üzünə qarşı bu sözü dediyinə görə Qeysi məcnun (dəli) adlandırdılar.





"Leyli və Məcnun" operası
Qəndab Quliyeva – Leyli
Baba Mahmudoğlu – Məcnun

Çünki Məcnuna qədər "sevirəm" sözünü qəti şəkildə söyləyən olmamışdı. Ona görə də yaşadığı cəmiyyət Qeysi başa düşmədi, o, nicatını çöllərə üz tutmaqda gördü.

Məhəbbətin bir çılğın nöqtəsi var. Mənim dəlixanaya getməkdə məqsədim bu rolla məhəbbətin zirvəsini yaratmaq idi. Sevən adam o zirvədə dayananda sevdiyini materiyanın bütün nöqtələrində görür. Daşda da, suda da onunla canlı kimi danışır. Beləcə, kənar mühit onu başa düşə bilmir və qarşısındakını "dəli" adlandırır..."

Beləliklə, Baba - gələcək Məcnun "eşq dəliləri"nin arasına girir, onlar da bu cavanı "özlərindən" sayır və dərdlərini ağıllı "dəliyə" söyləyirlər. Saatlarla söhbət və hərəkətlər sayəsində sənətkar onların davranış tərzini mənimsəyir, iç dünyalarına daxil olur, mənəvi aləmlərini dərk edir. Nəhayət, "dəlilər arasına səyahət" başa çatır, Baba özünü Məcnuna hazırlayır...

Baba Mahmudoğlu daha sonra xatirələrində yazırdı:

**"Məcnuna qədər də, ondan sonra da sevən, məhəbbəti yolunda canından keçənlər olub. Amma kimsəyə nə "Məcnun" deyilib, nə də onlar Məcnun zirvəsinə qalxıblar. Niyə?! Çünki "sevirəm" sözünü ilk dəfə Məcnun söyləyib. Bununla da əbədilik məhəbbətin elə bir əlçatmaz zirvəsinə qalxıb ki, o zirvəyə baxan oğulun, necə deyərlər, papağı başından düşür. Qeys adlı gəncin divanəliyi, məcnunluğu da o vaxtdan başlayıb ki, ətrafındakılar tərəfindən dərkedilməz, başadüşülməz olub. Bəlkə də elə ona görə hər dəfə Məcnunu oynayarkən mən necə il əvvələ – odlu-alovlu gənclik çağlarıma qayıdıram. Təzədən ürəyimdən Qeys kimi sevmək keçir..."**

Bütün bu məqamlar bir daha göstərir ki, Baba sözün həqiqi mənasında, işindən zövq alırdı. Bu adam sanki musiqimizi yaşatmaq üçün yaranmışdı. Ona görə də ümumxalq məhəbbəti qazanmışdı.

Oxuduğu mahnı və muğamların sayı-hesabı yox idi: "İrəvanda xal qalmadı", "Yalvara-yalvara", "Yaxan düymələ", "Kəklik", "Neylərsən", "Oynayır", "Sarı bülbül", "Qaragilə", "Bu gecə", "Qarabağ şikəstəsi", "Dağlar qızı", "Qaçaq Nəbi", "Dilbər", "Qara gözlər", "Ceyran bala", "İnciyər", "Bayatı-Şiraz", "Qəmərcan", "Dilkəş təsnifi", "Ləbu-ləb", "Rast", "Azərbaycan maralı"...

Cahangir Cahangirov "Xanəndənin taleyi"ni məhz Babanın səsinə görə yazmışdı. Bir dəfə də Niyazi onu çağırır ki, istəyirəm atamın operasında - "Aşıq Qərib"də oxuyasan. Bundan əvvəl isə... O zaman hələ 30 yaşı tamam olmayan Baba, çox gərgin keçən bir müsabiqədə iştirak etmiş və uğur qazanmış, həvəskar artist kimi Opera və Balet Teatrına qəbul olunaraq ömrünün ən gözəl çağlarını yaşayırdı.



Bəhram Mansurov və
Nazakət Məmmədova ilə



Ailə üzvləri

Zarafat deyildi, zavodda növbə rəisi işləyən bu gəncin qeyri-adi ifası dahi Niyazinin belə diqqətini cəlb etmişdi.

Sonralar böyük maestro bu haqda yazacaqdı: "Opera və Balet Teatrında keçirilən müsabiqədə birinci yeri tutan Baba Mirzəyevin möcüzəli səsi məni heyran etdi. Səsindəki büllurluq, məlahət, formatlılıq, heyrətamiz çeviklik təqdirəlayiqdir. Xeyli vaxt ötdükdən sonra o, atamın yazmış olduğu "Aşıq Qərib" operasının vala köçürülməsi mövsümündə Qərib rolunun ifasını bütün opera boyu ağlasığmaz dərəcədə gözəl oxumuşdur..."

Neçə-neçə mahnının musiqi və mətnlərini də özü yazmışdı: "Gülnişan", "Yarın qəşəngi", "Könlüm səni haraylar", "Aygün", "Eşqimin nübarı", "Bənövşə", "Xallı", "Görüm dözə bilərsənmi"...

**Amaliya xanım söhbətinə davam edir:** "Baba 40 ilə yaxın bir dövrdə böyük və uğurlu yaradıcılıq yolu keçdi, məhsuldar işləmiş, özünü əsl Azərbaycan xanəndəsi kimi təsdiq etdi. Radiomuzun fonotekasında onun 400-dən artıq lent yazısı var.

Opera müğənnisi kimi yetişən, tanınan və sevilən Baba Mahmudoğlu bir-birindən maraqlı və qüvvətli rollar oynamışdı: "Leyli və Məcnun"da Zeyd və Məcnun, "Şah İsmayıl"da Şah İsmayıl, "Əsli və Kərəm"də Kərəm, "Aşıq Qərib"də Qərib, "Gəlin qayası"nda Camal, "Xanəndənin taleyi"ndə Mir Seyid...

Baba özü boyda sirli-sehrli bir dünya idi. Onun mənəvi zənginliklərlə, fəlsəfi fikirlərlə dolu dünyası vardı. Dünya elmlərindən xəbərdar, ədəbiyyata yaxından bələd idi, incəsənətin bütün növlərini və musiqinin bütün janrlarını dərindən duyan və sevən müdrik insan idi.

1994-cü ildə təqaüdə çıxdım. Baba dedi ki, heç olmasa indi bir-birimizi görərik. O bu sözü elə-belə demirdi. Mən həftənin beş günü işdə, Baba da daim konsertdə, məşqdə, televiziyada və qastrollarda olduğundan bir-birimizə həsrət idik. Bununla belə könlümü almağa həmişə imkan tapırdı. Məni özü ilə Türkiyəyə, Misirə, Baltikyanı respublikalara, Orta Asiyaya, Qara dəniz sahillərinə aparırdı..."

Bəli, Baba Mahmudoğlu xoşbəxt sənətkarlarımızdandır. Onun neçə-neçə lent yazısı radio və televiziyamızın qızıl fondunda saxlanılır. Haqqında filmlər çəkilib, maraqlı məqalələr yazılıb, kitablar nəşr edilib. Bütün bunlar təbii ki, unudulmaz xanəndəyə olan ümumxalq məhəbbətinin təzahürüdür.



"Gəlin qayası"
Nazakət Məmmədova – Gülbahar
Baba Mahmudoğlu – Camal







*Səsin yaz çağında*
*Şimşək səsimi,*
*Yoxsa dağ çayının*
*Zümzüməsimi?!*



**Maraqlıdır ki, tanınmış sənətkarlar da Baba Mahmudoğlu yaradıcılığına yetərincə yüksək dəyər verirlər. Bu baxımdan, dahi bəstəkar Qara Qarayevin fikirləri diqqət çəkir: "Baba Mirzəyevin böyük vokalist və aktyorluq məharəti məni sevindirir. Düşünürəm ki, klassik xanəndələrimizin gələcək nəsilləri üçün o, yeni bir cığır açmışdır..."**

**Görkəmli sənətkar Lütfiyar İmanov yazır: "Baba geniş dünyagörüşünə malik dərin fikir adamı idi. Mən həmişə onun sənətinə, keçdiyi yaradıcılıq yoluna yüksək dəyər vermişəm. Operada yaratdığı obrazlar bir-birindən uğurlu olub..."**

**Azərbaycan mədəniyyətini bütün dünyada ləyaqətlə təqdim və təbliğ edən, müasir dövrün ən görkəmli xanəndələrindən olan Alim Qasımovun sənətkar haqqında qeydləri də maraq doğurur: "Onun sənətini, ifaçılıq tərzini həmişə çox sevmişəm. Babanın qeyri-adi istedadı həm ifasında, həm də söhbətlərində özünü göstərirdi..."**

Yazının sonunda Xalq artistinin ömür kitabından müəyyən məqamları dəyərli oxucularımıza bir daha xatırlatmaq istərdik. Məlumat üçün bildirək ki, Baba Mahmudoğlu 1940-cı ildə Qazaxda doğulub. 1956-cı ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olub. Birinci kursdan etibarən institutun bədii özfəaliyyət kollektivində çıxış edib. Bəstəkar Qəmbər Hüseynlinin rəhbərliyi ilə ali məktəblər üzrə keçirilən müsabiqədə fərqlənərək birinci yeri qazanıb. Böyük istedada, gözəl səsə malik olduğunu görən tələbə yoldaşlarının təkidi ilə Seyid Şuşinskinin yanına gedərək, Asəf Zeynallı adına Musiqi Məktəbində Süleyman Abdullayev, Əlibaba Məmmədov, Nəriman Əliyev, Nazakət Məmmədova, Zeynəb Xanlarova ilə birgə muğamları öyrənib.

Sonra Səid Rüstəmovun rəhbərliyi ilə fəaliyyət göstərən orkestrin müşayiətilə televiziyaya çıxıb, Əhməd Bakıxanov, Baba Salahov və Əhsən Dadaşovun ansambllarında oxuyub.

1962-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında təcrübəçi kimi fəaliyyətə başlayan Baba Mahmudoğlu sonralar bu teatrın muğam bölməsinin solisti olub. "Leyli və Məcnun"da Məcnun, "Aşıq Qərib"də Aşıq Qərib, "Əsli və Kərəm"də Kərəm, "Koroğlu"da təlxək, "Şah İsmayıl"da Şah İsmayıl, "Xanəndənin taleyi"ndə Mir Seyid obrazlarını yaradıb. 1982-ci ildə Əməkdar, 1992-ci ildə Xalq artisti fəxri adlarını alıb.

Prezident təqaüdçüsü olan sənətkar, 2005-ci ilin payızında uzun illər çalışdığı teatrdan təqaüdə çıxıb. Həmin ilin noyabrında xəstələnib, bir müddət sonra özünü yaxşı hiss etsə də, 2006-cı ilin yayında vəziyyəti yenidən pisləşib və həkimlər ona rayonda yaşamağı məsləhət görüblər. Bu səbəbdən Baba Mahmudoğlu ilin təxminən beş ayını Şamaxı rayonunun Çuxuryurd kəndində keçirəsi olub. Daha sonra Bakıya qayıdan sənətkar dekabrın 6-da 66 yaşında vəfat edib...

Yaşar Vəliyev